# "Heydər Əliyevin vətən səfərləri" çoxcildliyi Ulu Öndərin xatirəsinə hədiyyədir

**Yazıçı-publisist Vəsimə İsmayılqızının Ümummilli Lider haqqında yazdığı "Heydər Əliyevin vətən səfərləri" çoxcildlik kitabı Ulu Öndərin 100 illik yubileyi ərəfəsində işıq üzü görüb.**

Yazıçı-publisist çoxcildliyin uzun müddətə və zəhmət hesabına başa gəldiyini bildirib. Müəllifin sözlərinə görə, üç seriyadan ibarət olan nəşrdə tariximizin müxtəlif mərhələləri əks olunub. Ensiklo-



pedik toplunun birinci kitabı Ulu Öndərin respublikaya rəhbərlik etdiyi birinci dövrü əhatə edir. İkinci kitab Ulu Öndərin siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin respublikaya rəhbərliyinin 20 illik dövrü ilə bağlıdır. Nəşrdə Vətən müharibəsindəki Zəfərimizdən, dövlət-ordu-xalq birliyindən də bəhs edilir və bu seriyadan olan bütün cildlər ensiklopedik toplu meyarlarına uyğun hazırlayıb.

V.İsmayılqızının doğulub boya-başa çatdığı bölgənin tarixi, toponimləri, etnoqrafiyası və görkəmli şəxsiyyətlərindən bəhs edən "Goranboy" ensiklopedik toplusu 2000-ci ildə, Beyləqan haqqında ikinci ensiklopedik kitabı isə 2010-cu ildə nəşr olunub "Heydər Əliyevin vətən səfərləri" nəşri də ensiklopedik topludur.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**